2 Avqust Milli Kino Günüdür

Kino güdrətli silahdır...

İncəsənətin geniş yayılmış növlərindən biri kinodur. Azərbaycanda bu sənətin təməli 1898-ci ildə Bakıda fransız Aqyustla Zui Zumer qardaşları tərəfindən "fotosinema şirkəti" yaradılması ilə qoyulmuşdur. Zumer qardaşlarının Sabunçu dəmiryol vağzalında şəffaf sellüloid kino lentinə çəkdikləri üç dəqiqəlik "Qatarın gəlməsi" filmi dünya kino tarixinin qızıl fonduna daxil olmuşdur. 1916-cı ildə isə ilk bədii film çəkilmişdir. "Neft və milyonlar səltənətində" adlanan bu filmin yeganə nüsxəsi neqativləri ilə birlikdə erməni kinomexaniki Con Danelyan tərəfindən yandırılmışdır. Buna görə də Azərbaycan hökuməti 1920-ci ildə milli kinomexanik kadrları və kino qurğularının yanğından mühafizəsi haqqında dekret imzalamışdır.

1922-ci ildə Azərbaycan Xalq Maarif Komissarlığı nəzdində "Pioner və K°" adlı milli kino şirkəti yaradıldı. Bir il sonra həmin şirkət milliləşdirilərək "Fotokino" idarəsi kimi fəaliyyətə başladı. İdarənin ixtiyarında 5 kino qurğusu vardı. Bu kino qurğularında göstərilən filmlər səssiz nümayiş olunurdu. Yalnız 1938-ci ildən sonra Bakı kinostudiyası ilə Moskvanın "Mejrabpromfilm" studiyasının birgə çəkdikləri "Göy dənizin sahilində" adlı səsli bədii film ekranlara çıxdı. Həmin filmin videokino surəti bu gün Naxçıvan film fondunda mühafizə olunur.

Azərbaycanın kino tarixinə 20-30-cu illərdə bir çox qiymətli ekran əsərləri düşüb. 1925-ci ildə Abbas Mirzə Şərifzadənin çəkdiyi "Allahın adı ilə", 1926-cı ildə A.Litvinovun rejissorluğu ilə "Əlbəyaxa" filmləri tamaşaçılar tərəfindən maraqla qarşılanan kinolardandır.

1927-ci ildə Bakıda kinofabrik idarəsinin tikintisi başa çatdıqdan sonra rejissor Zeo Muraşkonun "Gilan qızı" bədii filmi ekranlara vəsiqə aldı.

1928-ci ildə Azərbaycan kino idarəsinə görkəmli dramaturq Cəfər Cabbarlı işə götürüldükdən sonra Mirzə Fətəli Axundovun "Hacı Qara" komediyasının motivləri əsasında "Sona" adlı film çəkildi. Bunun ardınca Cəfər Cabbarlının ssenarisi əsasında "Sevil" filmi həyata vəsiqə alaraq ekranlara buraxıldı. Qeyd edək ki, o illərdə çəkilən filmlərdəki qadın rollarının ifaçıları ya kişilər, ya da başqa millətlərin nümayəndələri olurdular.

Kino sənətinin inkişafına göstərilən qayğı yeni filmlərin yaranmasına, rejissorların meydana çıxmasına səbəb olurdu. Eyni zamanda, gənc kino aktyorları yetişirdi. Rejissor Mikayıl Mikayılovun ekranlaşdırdığı "Lətif", "İsmət", Cəfər Cabbarlının ssenarisi əsasında çəkilən "Almaz" filmlərində Ələsgər Ələkbərov, Həqiqət Rzayeva, Məcid Şamxalov, Əjdər Sultanov, Mustafa Mərdanov, Möhsün Sənani, Xəyri Əmirzadə və digər gənc aktyorlar iştirak edirdilər.

1936-cı ildə muxtar respublikamızın paytaxtı Naxçıvan şəhərində zona kino-foto idarəsi yaradıldı. Bir il sonra Naxçıvan MSSR-in II Konstitusiyası qəbul edildikdən sonra paytaxt şəhərimizin ayrı-ayrı məhəllələrində fəaliyyət göstərən səyyar kino qurğuları ləğv olundu. Şəhərdəki E.Telman adına mədəniyyət evində daimi kinoteatr qurğuları yaradıldı.

1941-51-ci illərdə Naxçıvan zona kino-foto idarəsindən filmlər nəinki Naxçıvan zəhmətkeşlərinə, o cümlədən Ermənistanın Ararat-Gorus zonası ilə Nüvədi-Mehri rayonlarına da göndərilirdi. Həmçinin dəmiryolu nəqliyyatı vasitəsilə Azərbaycanın Füzuli, Qubadlı, Zəngilan, Horadiz ərazilərinə də Naxçıvan zona kino-foto idarəsi xidmət edirdi.

1959-cu ildə Naxçıvanda kino xidməti sərbəstləşdirildi. İdarə yeni binaya köçürüldü və Naxçıvan kinoprokatı idarəsi adlandırıldı. Həmin kinoprokat idarəsi sovet dönəmində muxtar respublika ərazisindəki səyyar kinoqurğulara filmlər hazırlayaraq, xidmət göstərirdi.

Naxçıvanda kinoprokat idarəsi sonradan Azərbaycan kino video birliyi filialına çevrildi. Dörd il bu adla fəaliyyət göstərən həmin filial hazırda Naxçıvan film fondu adlanır. Burada Azərbaycanın maddi-mədəni sərvəti sayılan minlərcə bədii və sənədli filmlər qorunub saxlanılır.

Naxçıvan MR Mədəniyyət Nazirliyinin mədəniyyət üzrə elmi metodiki mərkəzin kino sənəti üzrə mütəxəssisləri film fondla sıx əlaqə saxlayaraq müxtəlif tədbirlərin keçirilməsini təşkil edirlər.

Muxtar respublikamızda həyatımızın bütün sahələrində olduğu kimi, incəsənətin də bu sahəsinə diqqət və qayğı göstərilməyə başlanılıb. Naxçıvan şəhərində uzun illər fəaliyyət göstərmiş H.Cavid adına kinoteatr binasında əsaslı təmir və yenidənqurma işləri aparılması naxçıvanlı kinosevərlərə böyük hədiyyədir.

Feyruz BAĞIROV,
Naxçıvan MR Mədəniyyət Nazirliyi mədəniyyət üzrə elmi-metodiki mərkəzinin kino-foto sənəti mütəxəssisi

Xəbər

Yeni ədəbi birlik fəaliyyətə başlayıb

Ötən həftənin son günü Naxçıvan ədəbi mühitində daha bir yeniliklə səciyyəvi oldu. Kəngərli rayonunda yazıb-yaradan şair və yazıçıların öz bədii yazılarını müzakirə edəbiləcəkləri ədəbi birlik fəaliyyətə başlayıb. Rayon icra hakimiyyətinin orqanı olan "Yeni həyat" qəzetinin nəzdində gənc şair Elxan Yurdoğlunun rəhbərlik etdiyi və romantik ədib Hüseyn Cavidin adını daşıyan ədəbi birliyin ilk məşğələsində rayonda yaşayan gənc ədəbi qüvvələr iştirak etmiş, onların oxuduqları şeirlər haqqında tədbirə dəvət olunmuş Budaq Təhməz, Firidun Süleymanoğlu öz fikirlərini bildirmişlər.

Yığıncaqda qərara alınmışdır ki, birlik hər ayın son həftəsinin şənbə günü öz məşğələsini keçirsin.

Sara ƏZİMOVA